# ADƏT VƏ ƏNƏNƏLƏR

## ən qiymətli milli-mənəvi dəyərlərimizdir

***Hər bir xalqın ən qiymətli mirası onun milli mədəniyyətidir. Milli mədəniyyət qorunmalı və gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir. Şübhəsiz ki, mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlığını qoruya bilməz. Bu məqsədlə yaradıcı və qurucu səciyyəli hər cür fəaliyyət təşviq edilməli, yeni qabiliyyətlərin kəşf edilməsi, istiqamətləndirilməsi, dəyərləndirilməsi fəaliyyətlərinə mühüm əhəmiyyət verilməlidir.***

Bu yolda ən güclü mübarizə vasitələrimiz isə məhz milli-mənəvi dəyərlərimizdir ki, onların da böyük bir qismi adət və ənənələrdə qorunub saxlanılmalıdır.

Aydın bir həqiqətdir ki, hər bir yeni nəsil bu hazır adət və ənənələrlə, xüsusən bunların ailə-məişət, birgəyaşayış əlaqələrini tənzim edən hissələrilə hələ uşaq yaşlarından qarşılaşır, bu tələblər ruhunda tərbiyə alır. Hər kəs uşaq yaşından mənimsədiyi adət və ənənələrə riayət etməyi özünə borc sayır.

Adət və ənənələrin davam etdirilməsi təbii proses , tarixi ardıcıllıq kimi təzahür edir. Lakin nəsillər arasındakı bu tarixi ardıcıllıq heç də öz-özlüyündə davam edən müstəqil proses olmayıb, ictimai həyatın qanunauyğunluqlarına tabedir. Yəni hər bir yeni nəsil özündən əvvəlki nəslin mənəvi simasını əks etdirən mövcud adət və ənənələri heç də hər zaman olduğu kimi təkrar davam etdirmir. Əksinə, yaşadığı dövrün, şəraitin, ictimai quruluşun tələblərinə uyğun olaraq, onların köhnəlmiş hissələrini atır, mütərəqqi hissələrini inkişaf etdirir, yeni keyfiyyətlərlə zənginləşdirir, lazım gəldikdə yeni adət və ənənələr yaradır.

Ata-babaların adət və ənənələrinə övladların belə münasibəti obyektiv ictimai səbəblərdən doğur. Bu gün artıq əvvəlki nəsillərin ən yaxşı adət və ənənələrini, mənəvi keyfiyyətlərini mənisəmək və inkişaf etdirmək, ənənəyə çevrilmş yeni mərasm və bayramları yaymaq yeni cəmiyyətin qələbəsi və yeni insan tərbiyə edilməsi üçün zəruri şərtlərdən birinə çevrilmişdir.

Milli adət və ənənələrin öyrənilməsi və onların mənəvi dəyərlər sistemindəki rolunun tədqiqi həmişə aktual olmuşdur. Çünki milli adət və ənənələr tarixin bütün mərhələlərində ictimai, mədəni tərəqqinin əsas göstəricisi kimi nəzərə çarpmışdır. Cəmiyyət inkişaf etdikcə adət və ənənələr də ayrı- ayrı quruluşların ictimai-siyasi xüsusiyyətlərinə bu və ya digər formada inteqrasiya edilmişdir. Buna görə də hər bir ictimai-siyasi quruluş həm bütövlükdə adət və ənənələrə, həm də onun mənəvi-bədii dəyərlərinə öz möhürünü vurmuşdur.

Sovet imperiyası dövründə Azərbaycan mədəniyyətinin beynəlmiləlləşməsi onun tarixi-milli kültürünü, yəni xalqın adət və ənənəsinin, dinə, doğma dilinə olan münasibətini nəzərə çarpacaq dərəcədə zəiflətmişdi. Bu baxımdan, xalq qədim tarixi köklərindən aralı düşmüşdü.

Kültürün zəifləməsi mənəvi mədəniyyətin beynəlmiləlləşdirilməsi siyasəti ilə idarə olunurdu. Beləliklə də, beynəlmiləl mədəniyyətlə milli mədəniyyət arasındakı tarazlıq pozulmuşdu. Belə bir vəziyyətdə öz kültürlərinə daha çox sadiq qalan ermənilər Azərbaycana qarşı torpaq iddiası qaldırdılar. Azərbaycan xalqının yüksəlmiş, inkişaf etmiş beynəlmiləl mədəniyyəti erməni etnik millətçi mədəniyyəti qarşısında kifayət qədər aciz göründü. Bunun nəticəsi isə bir çox milli - mədəni dəyərlərimizin mənimsənilməsi oldu. Beləliklə də, "sosialist mədəniyyətinin" qəfil tənəzzülü və dağılması nəticəsində Azərbaycan xalqı qısa bir zaman kəsiyində milli-tarixi kültürünə yenidən qayıtmaq, itirdiklərini tapmaq və bərpa etmək məcburiyyəti qarşısında qaldı. Cəmiyyət dəyişdikcə adət və ənənələr də təkmilləşmiş, millətin xalqın yaradıcılıq nümunələrini özündə yaşatmış, nəsildən-nəsilə ötürmüşdür. Yeni yaranan hər bir mənəvi dəyər isə tarixi ənənələrimizin varisi kimi təşəkkül tapmışdır. Bu səbəbdən də bütün dövrlərin adət və ənənələrində baş verən yeniliklərin, istiqamətlərin, öyrənilməsində əldə olunan tarixi təcrübənin müasir sənətşünaslıq və kulturologiya elmlərinə şamil edilməsinə böyük ehtiyac vardır. Xüsusilə də müasir Azərbaycan cəmiyyətinin dünyaya inteqrasiya prosesinin tənzimləməsində, adət və ənənələri mənəvi-əxlaqi dəyərlərimizin qorunmasında, assimliyasiya edilməsinin qarşısının alınmasında, yad təsirlərin içərisində əriməsinin yolunu kəsməkdə ən qiymətli milli dəyər kimi qiymətləndirilməlidir.

**Leyla Kərimova**